Çingizin caynağı sanki bir yuxu,
Heç biri bu dərdi sovuşdurmadı,
Məni azadlığa qovuşdurmadı[30].

Şübhəsiz ki, milli kimliyin formalaşmasında tarixi şəxsiyyətlərin müstəsna rolu vardır. Lakin şair yalnız tarixi şəxsiyyətlərə müraciətlə kifayətlənmir, müasirlərini də Vətən üçün gərəkli işlər görməyə çağırırdı.

***İkinci fəslin üçüncü paraqrafının*** **"Milli kimliyi simvollaşdıran tarixi şəxsiyyət obrazları və folklor" adlı *ikinci bəndində*** deyilir ki, B.Çobanzadənin tez-tez tarixə və tarixi şəxsiyyətlərə münasibəti də türkün, xüsusilə də Krım türklərinin milli kimliyinin özünüifadəsinə xidmət edirdi. Onun elmi və bədii yaradıcılığına fikir versək görərik ki, o, yalnız "biz kimik" və "hardan gəlirik" sualına cavab axtarmır, eyni zamanda "hara gedirik" sualına da cavab verməyə çalışır. B.Çobanzadənin böyüklüyü ondadır ki, onu türk xalqlarının gələcəyi daha çox düşündürürdü. Lakin inkaredilməz faktdır ki, gələcəyə aparan yol başlanğıcını keçmişdən alır. Ona görə də keçmişi anma, tarixi şəxsiyyətləri, türk sərkərdələrini yaddaşdan bu günə gətirmə tamamilə təbiidir və o, milli kimliyin formalaşmasında müstəsna rol oynayır.

Bəkir Çobanzadə türk xalqlarının tarixindəki və taleyindəki bəzi çatışmamazlıqları buraxılmış səhvlərdə görür. Milli kimlik həm də millətin imici ilə bağlı məsələdir. Millətin dünyada formalaşmış imici onun bir millət olaraq tanınması olduqca vacib məsələdi. Bu məsələnin B.Çobanzadəni bir vətəndaş şair kimi narahat etməsi və onun türkün imicinə zərbə vuran qüvvələrə qarşı üsyanı olduqca təbiidir. Şair göstərir ki, bəzi alimlər əsərlərində Hülaküyə, Batu xana, Teymura, Çingizə lənət yağdırır, bütövlükdə türkləri barbar adlandıraraq bu və digər türk sərkərdələrinin nəvələrini ittiham edir. Babadan uzaq salınan, onların tarixdəki yerini və mövqeyini bilməyən nəvələr

[30] Çobanzadə, B. Seçilmiş bədii əsərləri / Tərtib edəni Ramiz Əskər / B.Çobanzadə. – Bakı, – BXQR, – 2012. – s. 149

isə bu sərkədələri tanımadıqlarını bildirməklə kifayətlənir və deyirlər:

“Soyumda heç Çingiz, Batu olmadı,
Mən deyiləm” deyir fağır narazı,
Atam-anam Şərifədir, Seyiddir,
Qohumlarım ya bir molla, ya qazı”[31].

Şair “Keçmişdəki suçlarımız” (1920) şeirində savadsız və fağır türkləri ittiham edənlərə qəzəblə deyir:

Əl çəkin o fağır xalqdan, suçu yox,
Suçu olsa, əvəzini ödərəm,
Mənəm Çingiz, Teymur xanın nəvəsi,
Onlar gedən yolu mən də gedərəm…[32]

Göründüyü kimi, şair yaddaşdan və şəcərədən uzaq salınan türkə böhtan atanlara sözünü deməkdən çəkinmir. Bu cəhətdən, onun şeirlərinin lirik qəhrəmanı bütün gücünü folklorda yaşayan milli yaddaşından alır[33].

Dissertasiyanın **“Nəticə”** hissəsində aşağıdakı nəticələr ümumiləşdirilir:

1. B.Çobanzadənin elmi və bədii yaradıcılığı zəngin tədqiq imkanlarına malikdir. Sənətkarın yaradıcılığlında folklor məsələləri də bu cəhətdən aktualdır. Mövcud dissertasiya bu problemi öz əsas xətləri baxımından əhatə etməklə yanaşı, bu problemin perspektiv istiqamət xətlərini də müəyyənləşdirmişdir.

2. B.Çobanzadənin elmi və bədii yaradıcılığında folklor eyni dərəcədə milli məfkurəyə xidmət edir. O, öz elmi yaradıcılığı ilə türk folklorunun poetik sirlərini çözməyə çalışdığı kimi, bədii yaradıcılığında da folklorda təcəssüm

---

[31] Çobanzadə, B. Seçilmiş şeirləri / Tərtib edən, Kırım-tatar türkcəsindən uyğunlaşdıran və ön sözün müəllifi Pamiz Əskər / B.Çobanzadə. – Bakı, – BXQR, – 2011. – s. 43

[32] Yenə orada.

[33] **Paraqrafdakı elmi nəticələrin çap olunduğu qaynaq:** Qasımova, S. Folklor B.Çobanzadənin yaradıcılığında türk-tatar milli kimliyinin ifadəsi kimi // ÇAPDADIR

olunan milli kimlik ideyalarını türk xaqlarının aktual milli şüur stereotiplərinə çevrimək istəmişdir.

3. Sənətkarın folkorla bağlı düşüncələrinin formalaşmasında onun həyatı və formalaşdığı mühit böyük rol oynamışdır. Hələ uşaqlığında rus imperiyasının etdiyi milli haqsızlıqların şahidi olan B.Çobanzadə bütün mənalı ömrünü xalqının və ümumən türklərin milli intabahına həsr etmiş və bu yolda qurban getmişdir.

4. Türk xalqlarının ədəbi-mədəni düşüncə tarixində böyük rol oynayan Bəkir Çobanzadənin istər folklorşünaslıq, istərsə də ümumən elmi yaradıcılığının tədqiqini qənaətbəxş hesab etmək olmaz. B.Çobanzadənin elmi yaradıcılığı, bütövlükdə baxışlar sistemi hələ sağlığında tətqiqatların predmetinə çevrilməsinə baxmayaraq, onu bu sahədə bəxti gətirmiş alim hesab etmək olmaz. Onun elmi-ədəbi irsi sovet dövründə, 1956-cı ildən sonra bəraət almasına baxmayaraq, kifayət qədər tədqiq olunmamış və əsərləri çap edilməmişdir. Cəsarətlə demək olar ki, onun bir alim kimi əsl qiyməti müstəqillik illərində verilmişdir.

5. B.Çobanzadə üçün “xalq ədəbiyyatı” adı altında qəbul etdiyi folklor ilk növbədə canlı dil hadisəsi idi. O, təhsilli, alim profili baxımından peşəkar dilçi idi. Alimə görə, canlı dil xalq ədəbiyyatının canını, ruhunu təşkil edir. Folklor – canlı dildə və canlı dil vasitəsilə yaranır, canlı dildə yaşayır və gələcək nəsillərə ötürülür. Bu cəhətdən, canlı dildə baş verən dəyişmələr folklor mətnlərinin dil qatında öz əksini dərhal tapır.

6. Alim xalq ədəbiyyatına həm də folklor tarixi kimi yanaşırdı. O, istər Orxon abidələri, istərsə də “Dədə Qorqud” eposu ilə bağlı yanaşmalarında onlarda tarixin ruhunun əks olunmasını ardıcıl şəkildə vurğulamaqla türk folklorunun həm də türk tarixinin qaynağı olduğunu göstərir. Müəllifə görə, bunlar epik əsərlər, folklor abidələri olsa da, həmin abidələrdə həm də türkün tarixi yaşayır.

7. B.Çobanzadənin folklorşünaslıq görüşlərində folklorun toplanması, nəşri, tədqiqi və tədrisi məsələləri də əhəmiyyətli yer tutur. Alim bu məsələlərə çox böyük önəm vermişdir. B.Çobanzadə türk xalqları arasında folklorun toplanması işindən razı deyildi. O, məqalə və çıxışlarında, eləcə də "Türk dili və ədəbiyyatının tədris üsulu" adlı əsərində Avropa alimlərindən fərqli olaraq, Şərq alimlərinin, xüsusilə də türklərin xalq yaradıcılığının, şivələrinin kifayət qədər və həm də lazımi şəkildə toplanmadığından narahatlığını bildirirdi. O, toplama işi dedikdə yalnız xalq ədəbiyyatını nəzərdə tutmur, toplama işinə daha geniş aspektdən yanaşaraq türk xalqlarının dilindəki leksik vahidləri – dialekt, ləhcə və şivələri, xalqın adət-ənənələrini, şifahi xalq ədəbiyyatını, etnoqrafiyasını, sözün daha geniş mənasında folklorunu – xalq yaradıcılığının bütün sahələrini nəzərdə tuturdu. B.Çobanzadə mütəmadi olmasa da, folklor materiallarının toplanması işi ilə məşğul olmuşdur. Belə ki, o, səfər etdiyi bölgələrdə sadə xalqla ünsiyyətdə olmuş, onların yaratdıqları örnəkləri, yəni xalq yaradıcılığı nümunələrini də mümkün qədər toplamağa çalışmışdır.

8. Müəllifin folklorşünaslıq görüşlərində onun folklorun janr məsələləri ilə bağlı fikirləri mühüm yer tutur. Bu fikirləri araşdırdıqca qarşımıza türk folklorunun poetikasını dərindən duyan, onun janr-poetik mahiyyətinə vara bilən folklor nəzəriyyəçisi çıxır.

9. B.Çobanzadənin elmi və bədii əsərləri yalnız türk dilini və ədəbiyyatını öyrənmək baxımından deyil, bütövlükdə türkdilli xalqların humanitar-filoloji düşüncəsini, yaşam tərzini, adət ənənələrini, etnoqrafiyasını öyrənmək baxımından da olduqca dəyərli və etibarlı bir mənbədir.

10. Folklor zəngin məna aləmi, milli-mənəvi dəyərlərin xəzinəsi kimi B.Çobanzadənin bədii yaradıcılığında xüsusi yer tutur. Folklor əgər onun elmi yaradıcılığında bir tədqiqat obyekti idisə, bədii yaradıcılığında azad ilhamının qaynağı, milli

ruhunun ifadə formasıdır. Folklor B.Çobanzadə üçün ilk növbədə milli ruhun, milli kimliyin ifadə və təbliği vasitəsidir. Milliliyin – etnik kimlik ideyalarının, milli azadlıq düşüncələrinin folklor obraz və motivləri vasitəsilə ifadə olunması B.Çobanzadənin bədii yaradıcılığında əsas ideya-məzmun xəttidir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalə və konfrans materiallarında əks olunmuşdur.**


1. Bəkir Çobanzadənin sovetlər dönəmində Azərbaycanda tədqiqinə dair // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" jur., – 2018. – № 2, – s. 137-142 (202 səh.)
2. Bəkir Çobanzadənin şeir yaradıcılığında folklor motivləri // Türkiyə, Giresun II Uluslararası Dergi Karadeniz Sosyal Bilimler Simpozyumu (21 iyun 2019). – Giresun, – 2019. – s. 232-237. (304 səh.).
3. Su anası: mifoloji təfəkkürdən Bəkir Çobanzadəyə // "Dədə Qorqud" jur., – № 2, – 2019. – s. 99-106. (178 səh.)
4. Bəkir Çobanzadə türk xalqları folklorunun kökəni barədə // II Uluslararası Develi-Aşık Seyrani ve Türk Kültürü Konqresi Uluslararası Sempozyumu (10-12 oktyabr, 2019). – 2019. – s. 226-229, (536).
5. "Tandu" poemasında şər qüvvələr (Div və küpə girən qarı) // 25 may 2019-cu ildə Qazax şəhərində keçirilən "Qazax müəllimlər seminariyasının 100 illiyinə həsr olunmuş "Azərbaycan təhsili və elminin müasir problemləri" Beynəlxalq Konfransının materialları. – Bakı: – 2019. – s. 444- 449 (518 səh.).
6. Bəkir Çobanzadənin müstəqillik dövründə Azərbaycanda tədqiqinə dair // "Azərbaycan Şifahi Xalq Ədəbiyyatına dair Tədqiqlər" jur., – 2019, – № 1, – s. 80-85. (172 səh.).
7. Bəkir Çobanzadə folklorun toplanmasına dair // "Dədə Qorqud" jur., – № 1, – 2020, – s. 100-106, (184 səh.).

8. Бекир Чобанзаде и фольклор тюркских народов // Вестник Казахского Национального Университета им.Аль-Фараби. 2020. - № 2, ст. 89-95, (128 стр.).

9. Bəkir Çobanzadə folklorun tədrisinə dair // filologiya məsələləri, № 7, Bakı: 2020, "Elm və təhsil", 305-311, (330 səh.).

10. Bəkir Çobanzadənin "Kitabi-Dədə Qorqud" haqqında elmi düşüncələri" // "Dil və ədəbiyyat" jurnalı. Bakı: ADU, X cild, № 1, 2020, s. 89-96, (128 səh.).

11. Bekir Çobanzade folklor metinlerinin tür-poetik sorunları hakkında // 4. Uluslararası Mersin Sempoziumu Bildiri Tam Metinleri Kitapı. Kitap 6. 22-24 ekim 2020, Mersin // Türkiye. s. 339-349. (393 səh.).

12. Bəkir Çobanzadə Nizami ənənələrinin davamçısı Nəvai haqqında // Nizami və Nəvai irsinin mif və folklor qaynaqları. Beynəlxalq elmi konfransın materialları. Bakı, Elm və təhsil, 2021, s. 389-397

13. Folklor türk milli kimliyinin sanatsal yaratıcılığında ifade aracı olarak // III Uluslararası Develi-Aşık Seyrani ve türk kültürü kongresi. Cilt 3. Kayseri, 2022, s. 231-236

14. Milli kimliyi simvollaşdıran tarixi şəxsiyyət obrazları və folklor // AMEA-nın Gəncə bölməsinin Xəbərlər məcmuəsi. 2022, № 1 (4), s. 197-200

**Dissertasiyanın müdafiəsi _______ _______________ ______ il tarixində saat _________ AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları AR Prezidenti yanında AAK-ın (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat _________ __________il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb: 16.01.2024**
**Kağızın formatı: 60*84/$^{1/16}$**
**Həcm: 37182 işarə**
**Tiraj: 100**